# ◆ Ədəbi kaleydoskop



*♦ Lev Tolstoy fransız yazıçı J.J.Russonun şəklini daim özü ilə gəzdirirmiş.*

*♦ Aqata Kristi müharibə vaxtı hərbi hospitalda, daha sonra isə aptekdə tibb bacısı işlədiyindən, təsirli zəhərlər haqda xeyli məlumatı olub. Ona görə də əsərlərindəki bir çox ölüm hadisələri zəhər vasitələri ilə reallaşır. Xanım yazıçı disqrafiyadan əziyyət çəkdiyindən, bütün romanlarını diktə edib yazdırırmış.*





*♦ Artur Konan Doyl pərilərin varlığına inanırmış.*

*♦ Corc Bayronun çox özünəməxsus şəxsi kolleksiyası olub - o, sevdiyi qadınların saçını toplayırmış.*





♦ *Bir dəfə Ernest Heminquey mərc edir ki, 4 sözdən ibarət hekayə yazacaq və yazır: "Geyilməmiş uşaq ayaqqabıları satılır." ("For sale: baby shoes, never used").*



♦ *Amerikalı yazıçı O' Henri bir dəfə ən qısa hekayə müsabiqəsində qalib gəlir: "Sürücü siqaret yandırıb maşının yanacağını yoxladı. Mərhumun 23 yaşı var idi."*